# Bilal Ərdoğan İlahiyyat İnstitutunu ziyarət edib



Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın oğlu Nəcməddin Bilal Ərdoğan Azərbaycan İlahiyyat İnstitutunu (AİI) ziyarət edib. Qonaqla institut kollektivinin görüşü təşkil olunub. Görüşdə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Qarabağ və Çanaqqala şəhidlərinin ruhlarına Dəyanət İşləri Başqanlığı Müshəf Tədqiqləri və Qiraət Şurasının üzvü Fatih Okumuş tərəfindən Quran tilavəti təqdim olunub.

AİI-nin rektoru, dosent Aqil Şirinov Bilal Ərdoğanı institutda görməkdən məmnun olduğunu bildirib, ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Türkiyə-Azərbaycan qardaşlığının əbədiliyini diqqətə çatdıran A.Şirinov vurğulayıb ki, tarixin bütün dövrlərində insanlarımız bunun şahidi olublar: "Çanaqqalada azərbaycanlı gənclərin Anadolu gəncləri ilə birlikdə qələbə qazandıqlarını, Nuru Paşanın döyüşçüləri ilə birlikdə 1918-ci ildə Azərbaycanın köməyinə gəldiyini görürük".

A.Şirinov Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi zamanında da qardaş Türkiyə xalqına və dövlətinə göstərdikləri mənəvi dəstəyə görə dərin minnətdarlığını bildirib. Rektor, həmçinin Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın dostluğunun dövlətlərimiz arasındakı əlaqələrin inkişafında əvəzsiz rolundan bəhs edib.

Daha sonra Nəcməddin Bilal Ərdoğan Türkiyənin Azərbaycandakı səfirliyinin dini işlər üzrə müşaviri İhsan Açık bəyin moderatorluğu ilə tələbələrin suallarını cavablandırıb.

Bilal Ərdoğan vurğulayıb ki, ilahiyyat sahəsində savadlı, bilikli kadrlara hər zaman ehtiyac var. İctimai elmlərin və xüsusən də ilahiyyat elminin əhəmiyyətinə diqqət çəkən qonaq qeyd edib ki, müasir dünyanın mənəvi problemlərinin həlli sahəsində səylə çalışacaq ziyalılara, ilahiyyatçılara, mütəfəkkirlərə, cəmiyyətin önündə gedən insanlara ehtiyacımız var. O, XXI əsrdə islami elmlərdə dərin araşdırma aparacaq ziyalıların yetişdirilməsinin zəruri olduğunu vurğulayıb. Azərbaycan İlahiyyat İnstitutunun tələbələrinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 30 sentyabr.- S.9.